Aslan Xankişiyev
Subut Mehdiyev

DİPLOMATİYA VƏ İQTİSADİYYAT

1955

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
İŞLƏR İDARƏSİNİN
KİTABXANASI

BAKI–2003

66.3(5Hre)8 + 66.4(5Hre)
x 27

Elmi redaktor: Yaqub Mahmudov,
əməkdar elm xadimi, tarix elmləri doktoru, professor

Redaktor: Muğan Salahov,
Texniki elmləri doktoru, professor

Məsləhətçi: Ağacan Əbiyev
Texniki elmləri doktoru, professor

Bədii redaktor: Ağahüseyn Həsənov,
Pedoqoji elmlər doktoru, professor

Kitabın naşiri: B.A.Təhmasibi

Aslan Xankişiyev, Subut Mehtiyev
Diplom atiya və iqtisadiyyat- Bakı 2003

Kitabda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diplomatik-iqtisadi və siyasi fəaliyyəti işıqlandırılmış, həmçinin tarixçi və ictimai elm xadimlərinin də fikirləri öz əksini tapmışdır.

A $\frac{001259}{700122}$ –2003

© "Elm-təhsil" nəşriyyatı

ÖN SÖZ

Azərbaycan xalqı öz keçmiş tarixi ənənələri ilə daim möhtəşəm xalqlar arasında olmuş və yaşayıb-yaratmışdır. Azərbaycan xalqının tarixi keçmişinə nəzər salsaq, güclü mütəfəkkir, tarixi siyasi xadimlərin yetişdiyinin şahidi olarıq. Belə ki, əsrin əvvəllərində Azərbaycan xalqı müstəqilliyini əldə etsə də bir neçə il keçdikdən sonra Rus imperiyası bu müstəqilliyin uzun ömürlü olmasına təsir göstərərək, Azərbaycan torpaqlarını işğal etmiş və sovet imperiyası tərkibində Azərbaycan Respublikası yaradılmışdır.

İllər keçdikdən sonra Azərbaycan Respublikası çox çətinliklərlə də olsa, öz müstəqilliyini yenidən əldə etdi və Azərbaycan Respublikası hal-hazırda müstəqil dövlət kimi yaşamaqdadır. Amma müstəqilliyin əldə edilməsinin çətin olduğu qədər, onun qorunub, saxlanılması da bir o qədər çətin və məsuliyyətlidir. Müstəqilliyimizin qorunub, saxlanılmasında əvəzsiz xidmətləri olan tarixi şəxsiyyət Heydər Əliyev Azərbaycanın çətin və acınacaqlı günlərində xalqın köməyinə gəlmişdir. Heydər Əliyev kimi şəxsiyyətlərin tarixdə çox az sayda olduğunu xalqımız yaxşı bilir. Azərbaycan xalqının yetişdirdiyi dahi şəxsiyyətlər içərisində önəmli yeri tutan Heydər Əliyev bu gün Azərbaycan xalqının fəxri, dünya şöhrətli siyasətçidir. Azərbaycanın problemlərinin həllində mühüm rol oynayan möhtərəm Prezidentimiz Heydər Əliyev bu gün Azərbaycanda dövlətçilik, idarəçilik və iqtisadi inkişafın yüksək səviyyədə təməlini qoyan yeganə siyasətçidir. Heydər Əliyev Azərbaycanın gələcəyini, onun dirçəlişini düşünmüş, daim dövlətimizi dünyaya tanıtdırmış və Heydər Əliyev deyiləndə Azərbaycan, Azərbaycan deyiləndə Heydər Əliyev xatırlanmışdır.

Heydər Əliyev irsini araşdırmaq bu gün Azərbaycanda ən önəmli işlərdən birinə çevrilmişdir. Heydər Əliyev irsi hər zaman diqqət və maraq mərkəzində olmuş və ondan nümunə götürərək,

insanlarımız Azərbaycanlı olmaqları ilə fəxr etmişdir.

Heydər Əliyevin yeganə layiqli davamçısı, Heydər Əliyev məktəbinin yetirməsi və Heydər Əliyev siyasətinin uğurlu daşıyıcısı İlham Əliyevdir. Bu gün Azərbaycan gəncliyi İlham Əliyevlə fəxr edir. İlham Əliyevi Azərbaycanın gələcək inkişafını fikirləşən siyasi xadim hesab etmək düzgün olardı. İlham Əliyevin Azərbaycanda gördüyü işlər on ilə yaxın bir dövrü əhatə edir. Bu on il ərzində İlham Əliyev nə etmişdir, sualına diqqət yetirsək görərik ki, İ.Əliyev qısa bir müddət ərzində Azərbaycanın tərəqqisinə nail olmuşdur. İ.Əliyevin fəaliyyətinin əsas aspektləri Azərbaycan iqtisadiyyatının inkişafı, Azərbaycan gəncliyinin bu günü, sabahı, gələcəyi və onların qarşılaşdıqları problemlərinin həllini tapmaq və aradan qaldırmaq olmuşdur. İlham Əliyev diplomatiyasına nəzər salsaq görərik ki, Azərbaycan dünyanın aparıcı dövlətləri ilə bir sırada addımlayır və yüksək səviyyədə inkişaf edir. Azərbaycan diplomatiyasının aparıcı şəxsiyyətlərindən olan Heydər Əliyev bu gün Azərbaycanı dünyaya tanıdan yeganə şəxsiyyətdir desək yanılmazdıq. Və bu siyasətin layiqli davamçısı olan İlham Əliyev Azərbaycanda dünya standartlarına uyğun diplomatik siyasətin həyata keçirilməsinə rəvac verdi. Yəni ölkəmizin xarici ölkələrdə təmsil olunmasında, ölkəmizə xarici investisiyaların gətirilməsində, xarici kapitalın axınının sürətləndirilməsində və beynəlxalq neft şirkətlərinin Azərbaycana gəlməsində İlham Əliyev diplomatiyasının böyük rolu olmuşdur. Yəni İlham Əliyevin xarici ölkələrdə, beynəlxalq aləmdə keçirdiyi görüşlər nəticəsində biz əminliklə deyə bilərik ki, Azərbaycana investisiya axını birə on artmışdır. 1992-93-cü illərə nisbətən Azərbaycana gətirilən investisiyanın miqdarında dəfələrlə dəyişikliklər olmuşdur. Bu halların baş verməsində ilk növbədə İlham Əliyevin zəhməti olmuşdur. İ.Əliyev diplomatiyası bu gün Azərbaycanın iqtisadiyyatına da müsbət təsir göstərir və iqtisadiyyatın inkişaf etdirilməsində xarici ölkələrin Azərbaycana cəlb olunması, xarici ölkələrin Azərbaycanda iş birliklərinin yaradıl-

ması iqtisadi əməkdaşlığın həyata keçirilməsində böyük rol oynadığı üçün bu gün İ.Əliyev faktoru Azərbaycanın dünyaya tanıtdırılmasında önəmli rol oynayır. Onu da qeyd etmək olar ki, Avropa Şurasındakı uğurlarımız İlham Əliyevin adı ilə bağlıdır. Avropa Şurasında Azərbaycanın həyata keçirdiyi siyasət bu gün dünyada qəbul olunmuş bir siyasətdir və Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında və torpaqlarımızın işğalçı dövlət olan Ermənistandan azad olunmasında İ.Əliyevin xüsusi xidmətləri vardır. Onun son illərdə Avropa Şurasında böyük nüfuza malik olmasında onun bir neçə xarici dili mükəmməl bilməsinin də rolu olmuşdur. Bununla yanaşı İlham Əliyev Azərbaycanlı olaraq, dünyada çox yüksək səviyyədə qəbul olunan bir siyasətçidir. İlham Əliyevin Avropa Şurasının büro üzvü, Avropa Şurasının vitse-prezidenti seçilməsi Azərbaycan üçün çox böyük bir siyasi hadisədir.

Bu gün Azərbaycanda aparılan ictimai-siyasi proseslər, iqtisadi böhranın aradan qaldırılması, əhali arasında yoxsulluğun azaldılması ilə bağlı görülən işlər və digər amillər dünya dövlətləri tərəfindən müsbət qarşılanır. Bu gün əldə olunmuş stabillik, sabitlik, iqtisadi inkişaf dünyanın bir çox dövlətləri ilə müqayisədə daha yüksək sürətlə inkişaf edir. Qeyd edək ki, iqtisadi inkişafa Azərbaycanda aparılan daxili siyasətin müsbət təsiri olduğunu hamımız aydın görürük.

"Diplomatiya və iqtisadiyyat" kitabında, beynəlxalq aləmdə həyata keçirilən diplomatiya və Azərbaycanın iqtisadiyyatına bu diplomatiyanın təsiri açıqlanmışdır. Yəni son illərdə Azərbaycanda fəaliyyət göstərən iri miqyaslı şirkətlərin inkişaf etdirilməsi, Azərbaycanda istehsal sahələrinin artırılması ilk növbədə Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunun artması ilə əlaqədir. Və bu iqtisadi əməkdaşlığın müsbət nəticəsindən irəli gəlmişdir. Onu da qeyd etmək istərdim ki, Azərbaycanda istehsal sahələrinin yaradılması, Azərbaycanda neft şirkətlərinin sayının əvvəlki illərə nisbətən artması və fəaliyyət göstərən digər tarifli investor-

ların sayının artması ilk növbədə diplomatiyamızın uğurlu nəticəsidir. Bu diplomatiya kimin adı ilə bağlıdır? Əlbəttə, ilk növbədə Azərbaycanı dünyada tanıtdıran Heydər Əliyev şəxsiyyətinin adı ilə bağlıdır. Və bu şəxsiyyətin Azərbaycanda yetirdiyi böyük simalardan biri olaraq, İlham Əliyevi göstərmək olar. Sözsüz ki, son illərdə Azərbaycanın dünyanın digər dövlətləri ilə iqtisadi əməkdaşlığı güclənmiş və bu əməkdaşlıq Azərbaycan xalqının gələcəyinə də müsbət təsir göstərmişir.

Azərbaycan diplomatiyası günü-gündən inkişaf edir və bu inkişaf dünyanın digər sivil dövlətləri ilə müqayisədə daha nəzərə çarpan səviyyədədir.

Kitabda bəzi məqamlara toxunmağımızın əsas səbəbi Azərbaycada aparılan diplomatik və iqtisadi inkişafı oxucularımıza daha aydın şəkildə göstərməkdir. Burada ayrı-ayrı şəxslər, alim və siyasi xadimlərin fikir və mülahizələri cəmlənmişdir. Bu kitab vasitəsilə bu gün Azərbaycanda aparılan siyasətin, xalqın gələcəyinə müsbət təsir göstərəcəyi oxucularımıza bir daha aydın olacaqdır.

Aslan Xankişiyev

İLHAM ƏLİYEV - DÜNYA SƏVİYYƏSİNƏ UCALMIŞ MÜASİR SİYASƏTÇİ

Yaqub Mahmudov, əməkdar elm xadimi, tarix elmləri doktoru, professor, Milli Məclisin deputatı

Bu gün məmləkətimizdə Heydər Əliyevin yaratdığı sabitlik şəraitində çoxları yenidən siyasətlə məşğul olmaq eşqinə düşüb. Siyasətdən az-çox başı çıxanlar da, çıxmayanlar da! Başına 5-10 nəfər qohum-əqrabasını, həmyerlisini toplayan partiya "liderləri"nin hər biri hakimiyyətə keçmək iddiası ilə yaşayır. lakin zaman, heç kəsə baş əyməyən obyektiv reallıq, keçid dövrünün sərt sınaqları öz sözünü deyir. Tükü-tükdən seçən xalq müdrikliyi hər kəsə öz qiymətini verir. Qərəzli mətbuat cızma-qaralarına rəğmən Azərbaycanın bugünkü siyasət dünyasında İlham Əliyev şəxsiyyəti getdikcə daha aydın görünməkdə, öz layiqli yerini tutmaqdadır.

Siyasətlə məşğul olmaq hər adamın işi deyil. Müasir dünyada son dərəcə dərin, hərtərəfli və eyni zamanda mürəkkəb inteqrasiya prosesləri gedir. Sosializm sisteminin və böyük sovet imperiyasının dağılmasından sonra bu proseslər daha da sürətlənmişdir. Dünya gözlərimiz önündəcə dəyişir. Ölkələr arasındakı, beynəlxalq münasibətlərdəki ənənəvi meyllər, əlaqələr alt-üst olur. Tamamilə yeni münasibətlər, proseslər formalaşır. Təbiidir ki, Azərbaycanımız müstəqil bir dövlət kimi yaşamaq üçün bu proseslərdən kənarda qala bilməz.

Digər tərəfdən, Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən və bütün tarixi dövrlərdə "qızıl körpü" rolu oynayan Azərbay-

canın müstəqil yaşaması üçün xarici siyasət həmişə başlıca, daha doğrusu, öncül rol oynamışdır. bizim yurdumuz başqa məkanlarda yerləşən nisbətən passiv, diqqəti çəkməyən ölkələr kimi, necə deyərlər, başını aşağı salıb öz daxili problemləri ilə məşğul ola bilməz. Odur ki, zəngin yeraltı və yerüstü sərvətlərə, o cümlədən enerji ehtiyatlarına malik olan və buna görə də xarici ölkələrin (ilk növbədə böyük dövlətlərin!) maraq dairəsinə daxil olan Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq hər siyasətçinin işi deyil! Tarixi torpaqları dəfələrlə bölüşdürülmüş və sayca dünyada ikinci türk xalqı (60 milyona yaxın!) olan Azərbaycan xalqının yalnız 8 milyonu dövlətimizin ərazisində yaşayır. Qalanı bütün dünyaya səpələnmişdir. Belə bir xalqa liderlik etmək də asan məsələ deyil.

Heç kəs unutmamalıdır ki, XIX-XX yüzilliklərin son dərəcə mürəkkəb və ziddiyətli tarixi şəraitində xalqımız azadlığa çıxmaq, müstəqil yaşamaq üçün dəfələrlə cəhd göstərmiş, lakin hər dəfə uğursuzluğa düçar olmuşdur. Sonuncu dəfə vətəni, xalqımızı tarixin ən qanlı burulğanından yalnız dahi Heydər Əliyev şəxsiyyəti xilas edə bildi. 1993-cü ildə məkrli xarici qüvvələrin təcavüzü və onların daxildəki əlaltılarının xəyanəti nəticəsində Azərbaycanın müstəqilliyi növbəti dəfə qan içində boğulacaqdı, əgər Qurtuluş savaşımızın qalibi, Ata Yurdumuzun Atatürkü - Heydər Əliyev şəxsiyyəti meydana atılmasaydı!

Bir siyasətçi kimi İlham Əliyev, özünün bir çox üstünlüklərinə, o cümlədən şəxsi keyfiyyətlərinə görə müasir Azərbaycan siyasətçiləri (daha doğrusu siyasətbazları!) üçün əlçatmaz yüksəkliyə ucalmışdır. O, çoxlarından fərqli olaraq, Azərbaycanın və bütün dünya ölkələrinə səpələnmiş Azərbaycan xalqının həm daxili, həm də xarici siyasət problemlə-

rini dərindən bilən siyasətçidir.

Müasir dünyada, artıq, yetkin bir siyasətçi kimi qəbul olunan İlham Əliyev siyasət aləmində, necə deyərlər, sadə müşahidəçi deyil. O özünün konkret fəaliyyətinə görə təcrübəli dövlət xadimi səviyyəsinə yüksəlmiş bir siyasətçidir. İlham Əliyev müstəqilliyimizin qorunub saxlanması və möhkəmləndirilməsində, bugünkü demokratik, hüquqi və dünyəvi Azərbaycan dövlətinin qurulmasında yaxından iştirak edib, dahi Heydər Əliyev şəxsiyyətinin ən yaxın silahdaşı olub. O bu missiyanı bu gün də uğurla davam etdirir, Yeni Azərbaycanın qurulmasında fəal iştirak edir.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti kimi çox məsuliyyətli bir vəzifə daşıyan İlham Əliyev müəllifi Heydər Əliyev olan neft strategiyasının hazırlanmasında, bu siyasətin dünya meydanında uğur qazanmasında, ölkə başçısının tapşırığı ilə bu istiqamətdə müxtəlif layihələrin hazırlanmasında, çox çətin diplomatik tapşırıqların yerinə yetirilməsində yaxından iştirak etmişdir. Kifayət qədər bərkdən-boşdan çıxmış bir dövlət xadimi kimi İlham Əliyev ölkədaxilində bazar iqtisadiyyatına keçidlə bağlı bütün islahatların həyata keçirilməsində böyük rol oynayır. Bir sözlə, Azərbaycanın həm daxili, həm də xarici siyasət problemlərindən layiqincə baş çıxaran və bunların həlli yollarına yaxşı bələd olan İlham Əliyev yaxın gələcəkdə ölkənin idarəçilik sükanının arxasına keçməyə layiq olan siyasətçidir. Bütün bunlardan əlavə, bir dövlət xadimi kimi İlham Əliyev cəmiyyətin bütün təbəqələri içərisində böyük nüfuza malikdir.

Demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda fəal iştirak edən İlham Əliyev, həm də görkəmli partiya xadimidir.O, ölkənin aparıcı siyasi partiyası olan Yeni Azərbaycan Partiyası sədrinin birinci müavinidir. Ona etibar olunmuş bu

mühüm vəzifənin öhdəsindən layiqincə gələn İlham Əliyev ölkə əhalisinin geniş kütlələrinin Yeni Azərbaycanın quruculuğuna səfərbər olmasında çox səmərəli fəaliyyət göstərir. Heç də təsadüfü deyildir ki, 2000-ci ilin parlament seçkilərində YAP-ın seçki kampaniyasına məhz İlham Əliyev başçılıq etmişdir. Məhz onun rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası həmin seçkilərdə parlaq qələbə çalmış və Milli Məclisdə yerlərin böyük əksəriyyətini qazanmışdır.

Milli Məclisin deputatı kimi İlham Əliyev ölkədə geniş və çoxsahəli fəaliyyət göstərir. İlham Əliyev daim xalqın içərisindədir, onun problemlərini öyrənir, ona hayan olur, əhalinin sosial müdafiəyə ehtiyacı olan təbəqələrinə müntəzəm qayğı göstərir. Onun Qarabağ rayonunda apardığı böyük işlər doğma xalqa göstərilən bu qayğının parlaq nümunəsidir.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının üzvü olan İlham Əliyev Avropa Şurasının Parlament Assambleyasında Milli Məclisin daimi nümayəndə heyətinin rəhbəridir. İlham Əliyevin Avropa Şurasındakı məqsədyönlü, qətiyyətli və cəsarətli fəaliyyəti ölkəmizin Avropa məkanında nüfuzunun daha da artmasına çox güclü təsir göstərmişdir. Məhz İlham Əliyevin yorulmaz fəaliyyəti, qətiyyətli çıxışları sayəsində erməni təcavüzkarları Avropa Şurasında ifşa olunmuş, yurdumuzun ayrılmaz parçası olan Dağlıq Qarabağ problemi barədə Qərb dünyasında obyektiv rəy yaradılmasında, həmin münaqişəyə düzgün siyasi qiymət verilməsi və onun həlli yolunda mühüm addımlar atılmışdır. Avropa Şurasında Ermənistanın təcavüzkar dövlət kimi tanınmasında, erməni terrorçuluğunun beynəlxalq terrorizmin tərkib hissəsi kimi sübuta yetirilməsində, nəzarətdən kənarda qalan Dağlıq Qarabağın narkotiklərin ötürücü məntəqəsinə və terror yuvasına çevrilməsinin

Avropa və dünya ictimaiyyətinə çatdırılmasında İlham Əliyevin böyük xidmətləri danılmazdır. Bütün bunların qanunauyğun nəticəsidir ki, Avropa Şurasındakı fəaliyyəti İlham Əliyevə Qərb siyasətçiləri arasında böyük hörmət və nüfuz qazandırmışdır. Bu onun çağdaş və gələcək siyasi fəaliyyəti üçün qazanmış olduğu çox böyük uğur və üstünlükdür.

Bir siyasi xadim kimi İlham Əliyevi ABŞ-da, Rusiyada və dünyanın bir çox başqa ölkələrində də yaxşı tanıyır, yüksək qiymətləndirirlər. Onun bu yaxınlarda ABŞ-a səfəri, orada keçirdiyi yüksək səviyyəli görüşləri, o cümlədən Ağ Evdə vitse-prezident Riçard Çeyni ilə görüşü, Con Hopkins Universitetinin Mərkəzi Asiya və Qafqaz Araşdırmaları İnstitutunda "Cənubi Qafqaz və Xəzər hövzəsi: Bakıdan baxış" mövzusunda çox maraqlı məruzəsi, Amerikanın yüksək mövqeyə malik olan dövlət xadimləri, iş adamları, hərbçiləri, görkəmli deputatları ilə yüksək peşəkarlıqla apardığı danışıqlar vətənini sevən hər bir azərbaycanlıda haqlı qürur hissi doğurur və gələcəyə böyük ümid yaradır. Bütün bunlar aydın göstərir ki, İlham Əliyev, ümumiyyətlə, beynəlxalq aləmdə yaxşı tanınan və dünyanın aparıcı dövlət xadimləri tərəfindən qəbul olunan siyasətçidir. Bu Azərbaycan siyasətçisinin daha parlaq gələcəyindən xəbər verir.

Bütün yuxarıda göstərilənlərlə yanaşı İlham Əliyev Azərbaycan prezidenti Heydər Əliyevin gənclər siyasətinin həyata keçirilməsində misilsiz fədakarlıq göstərir. O, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin prezidenti qısa bir zaman parçası ərzində özünün bu sahədə də yüksək təşkilatçılıq istedadına malik olduğunu göstərdi. İlham Əliyev özünün yorulmaz və gərgin əməyi sayəsində az vaxt içərisində Azərbaycan idmanını ayağa qaldırmış, ona dünya şöhrəti qazandırmışdır. İlham Əliyev yetkin və uzaqgörən bir siya-

Hörmətli oxucu,

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.